

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

# LERİK

№ 18-19 (5556) ✹ 08 oktyabr 2015-ci il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiyməti 40 qəpik


# Lerik Rayon İcra Hakimiyyəti başçısının

## S Ə R Ə N C A M I

**01 noyabr 2015-ci ilə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər ilə əlaqədar rayonun yaşayış məntəqələrində vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsi və Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın 11-ci maddəsi hər kəsin başqaları ilə birlikdə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək hüququnu təsbit edir. Vətəndaşların sərbəst toplaşmaq hüququ və bu hüququn təmin edilməsi qaydalarını hazırlamaq məqsədi ilə "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmişdir. Qanunun əsas məqsədi ölkəmizin hüquqi dövlət quruculuğu mərhələsində əhalinin sosial fəallığının artırılması, vətəndaş- dövlət münasibətlərinin beynəlxalq prinsiplərə və qaydalara uyğun qurulmasını təmin etməkdən ibarətdir.

Rayonun bütün yaşayış məntəqələrində 2015-ci ilin noyabr ayının 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərə hazırlıq dövründə vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsi, bütün namizədlərə bərabər təbliğat-təşviqat imkanlarının yaradılması məqsədi ilə 78 saylı Lerik Dairə Seçki Komissiyasının 27 sentyabr 2015-ci il tarixli müraciətini nəzərə alaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 86.1 və 87.6-cı, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 7-9-cu maddələrinə əsaslanaraq

**Q ə r a r a  a l ı r a m:**

1. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə əlaqədar rayonun yaşayış məntəqələrində "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada rayonun yaşayış məntəqələrində dinc yığıncaqlar, mitinqlər, nümayişlər və sair toplantıların keçirilməsi üçün ayrılmış yerlərin siyahısı təsdiq edilsin. (Siyahı əlavə olunur)

2. Lerik Rayon İcra Hakimiyyəti başçısının şəhər (kənd) inzibati ərazi dairələri üzrə nümayəndələrinə tapşırılsın ki:

- təsdiq edilmiş siyahıya uyğun olaraq Milli Məclisə seçkilərdə qeydə alınmış namizədlərin və onların səlahiyyətli nümayəndələrinin, namizədi qeydə alınmış siyasi partiyalar və siyasi partiyaların bloklarının səlahiyyətli nümayəndələrinin müraciətlərinə əsasən dinc yığıncaqlar, mitinqlər və digər kütləvi toplantıların keçirilməsi üçün yerlərin ayrılmasını təmin etsinlər;
- toplantıların keçirilməsi barədə müraciətlərə "Sərbəst toplaşmaq azadlığı haqqında " Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla qanunun tələblərinə müvafiq qaydada və müddətdə baxılmasını təmin etsinlər;
- yaşayış məntəqələrində "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlər və Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla kütləvi təbliğat-təşviqat materiallarının yerləşdirilməsi üçün təsdiq edilmiş siyahıya uyğun yerlərin ayrılmasını təşkil etsinlər;
- yığıncaqlar, mitinqlər və digər kütləvi toplantıların keçirilməsi zamanı hüquq-mühafizə orqanları tərəfindən ictimai asayişin qorunması, insanların təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq təşkilati tədbirlər həyata keçirsinlər.

3. Lerik Rayon İcra Hakimiyyəti başçısının 31 oktyabr 2014-cü il tarixli 209 nömrəli sərəncamı qüvvədən düşmüş hesab edilsin.

4. Sərəncam "Lerik" qəzetində dərc edilsin.

5. Sərəncamın icrasına nəzarət rayon icra hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşiyevə tapşırılsın.

**Rövşən Bağırov,**
**Lerik Rayon İcra Hakimiyyəti başçısı**

*Lerik şəhəri*
*30 sentyabr 2015-ci il*

# Kolumbiya Respublikasının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Assad Jose Jater Pena Lerik rayonunda rəsmi səfərdə olmuşdur

**2015-ci il oktyabrın 5-6-da Kolumbiya Respublikasının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Assad Jose Jater Pena Lerik rayonunda rəsmi səfərdə olmuşdur.**

Səfər çərçivəsində Kolumbiyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Assad Jose Jater Pena və Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov arasında görüş oldu. Rayon icra hakimiyyəti başçısı rayonun qədim tarixi, sosial-iqtisadi inkişafın haqqında qonaqlara ətraflı məlumat verdi. Assad Jose Jater Pena Azərbaycanda gedən sosial-iqtisadi inkişafın onda xoş təəssürat yaratdığını qeyd etdi, paytaxtla yanaşı region şəhərlərində də inkişafın, müasirləşmənin getdiyini, Lerikdə olmasından məmnun qaldığını bildirdi. Görüş zamanı səfir Assad Jose Jater Penaya və onun xanımına rayon sakinləri tərəfindən hazırlanmış xalq sənətkarlığı nümunələrindən ibarət hədiyyələr və Lerik haqqında yazılmış kitablar təqdim edildi.



Səfər çərçivəsində qonaq Heydər Əliyev Mərkəzini ziyarət etmiş, rayon tarix və diyarşünaslıq muzeyi, eləcə də "Uzunömürlülər" muzeyində eksponatlarla, rayonun bir sıra tarixi və mədəni abidələri ilə yaxından tanış olmuşdur. Həmçinin qonağa rayonumuzun uzunömürlü sakinləri və zəngin tarixi keçmişi haqqında ətraflı məlumat verilmişdir. Cənab Assad Jose Jater Pena özü ilə gətirdiyi bir sıra kitabları rayon mərkəzi kitabxana sisteminə hədiyyə etmişdir. Daha sonra rayonun "Relax" İstirahət və Turizm Mərkəzində Azərbaycanın milli mətbəxinin nümunələri ilə yaxından tanış olmuş, oktyabr ayının 6-da Lerik rayonunun təbiət guşələrini seyr etmişdir. Kolumbiyalı qonaq rayonun geniş turizm potensialına və burada həyata keçirilən abadlıq-quruculuq işlərinə heyranlığını ifadə etmiş, eləcədə rayonun təbiətinin onu valeh etdiyi barədə fikirlər səsləndirmişdir.

# Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyev Lerikdə 5 rayonun sakinləri üçün qəbul keçirib



Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyev Lerik şəhərində 5 rayondan olan məcburi dövlət sosial sığorta ödəyiciləri və pensiyaçılar üçün qəbul keçirib. Fond sədrinin qəbuluna gələn Lerik, Lənkəran, Astara, Masallı və Yardımlı rayonlarının sakinləri əsasən pensiya təyinatı, başqa dövlətlərin ərazisində qazanılmış iş müddətlərinin sığorta stajına daxil edilməsi, əmək pensiyası növünün dəyişdirilməsi, pensiyaların yenidən hesablanmasının bir sıra hüquqi aspektləri, o cümlədən müvafiq arxiv sənədlərinin olmaması səbəbindən keçmiş sovet dövründə işlədikləri müddətin əmək stajlarına əlavə edilməsi kimi məsələlərlə bağlı müraciət ediblər. Görüş zamanı həmçinin, əmək pensiyasının üzərinə qulluq stajına görə əlavənin hesablanması, əyani təhsil müddətinin staja daxil edilməsi, dövlət qulluqçusu kimi pensiya təyin olunması və digər məsələlər barədə təklif və şikayətlər dinlənilib.

Vətəndaşların rahatlığının təmin olunması məqsədilə Dövlət Sosial Müdafiə Fondunun sspf.gov.az rəsmi internet saytında qəbula əvvəlcədən yazılmaq imkanı yaradılıb, müraciət üçün əlaqə nömrələri göstərilib, qəbulda iştirak edənlərin Fondun müvafiq rayon şöbələrinin inzibati binasının qarşısından xüsusi ayrılmış nəqliyyatla qəbulun keçirildiyi ünvana aparılıb- gətirilmələri təmin olunub.

Fondun məsul əməkdaşlarının və Lerik, Lənkəran, Astara, Masallı və Yardımlı rayonlarının şöbə müdirlərinin iştirakı ilə keçirilən qəbul zamanı ümumilikdə 30-dək vətəndaşın müraciətinə baxılıb. "Açıq qapı" şəraitində davam etdirilən görüşdə hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, onların problemlərinin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün tapşırıqlar verilib, eləcə də Fondun səlahiyyətlərinə aid olmayan məsələlərə dair vətəndaşlarla lazımi izahat işi aparılmaqla, aidiyyəti orqanlara müraciət edilməsi qərara alınıb.

Qəbulda iştirak edənlər Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən mütəmadi olaraq bölgələrdə vətəndaşların qəbulunun təşkilindən razı qaldıqlarını vurğulayaraq, pensiyaçılara göstərilən yüksək diqqət və qayğıya görə dövlət başçısına öz minnətdarlıqlarını ifadə ediblər.

# Tanınmış ictimai xadim, ağsaqqal Miri Qənbərovun 80 illik yubileyi qeyd edildi




**Lerik Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə tanınmış ictimai xadim, iki çağırış Milli Məclisin deputatı olmuş və doğma Leriki layiqincə respublikada təmsil etmiş el ağsaqqalı Miri Əhəd oğlu Qənbərovun anadan olmasının 80 illik yubileyi geniş qeyd edildi. Öncə tədbir iştirakçıları və yubilyar ulu öndər, xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etdilər, abidə önünə tər güllər düzdülər.**






Rayon mədəniyyət evinin foyesində yubilyarın həyatı və ictimai-siyasi fəaliyyətini, ümummilli lider Heydər Əliyevlə ayrı-ayrı dövrlərdə çəkilmiş fotolardan və dövlət tərəfindən Miri Qənbərova verilmiş mükafatları, təltifləri əks etdirən diplom və sənədlərdən ibarət sərgiyə baxış keçirdilər.

Tədbir iştirakçıları Rayon İcra Hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Arzu Vəlimməmmədova Miri Qənbərovun keçdiyi həyat yolu, ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumat verdi. Miri Qənbərovun həyat və fəaliyyətinə həsr edilmiş filmdən fraqmentlər nümayiş etdirildi.

Yubiley tədbirində Milli Məclisin deputatları Hadı Rəcəbli, İqbal Məmmədov, rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov və başaqları çıxış edərək Miri Qənbərov haqqında xatirələrini bölüşdülər, onun həmişə saf əqidəsi, xeyirxahlığı ilə seçildiyini, bu gün də respublikanın və rayonun ictimai-siyasi həyatında fəal iştirak etdiyini bildirdilər, onu həm də sadiq dost, dövlətçiliyə, ulu öndər Heydər Əliyev siyasi kursuna, elinə-obasına bağlı ağsaqqal, gözəl ailə başçısı kimi xarakterizə etdilər.

Miri Qəmbərovun ailə üzvləri adından nəvəsi çıxış edərək doğma yurdunda babasına göstərilən yüksək diqqət və ehtirama görə minnətdarlığını bildirdi.

Tədbirdə məktəblilərin ifasında yubilyara həsr edilmiş şeirlər səsləndirildi, respublikanın ayrı-ayrı bölgələrindən, tanınmış şəxslərdən daxil olmuş təbrik teleqramları oxundu. Rayon mədəniyyət mərkəzinin musiqi kollektivinin ifasında rəngarəng musiqi nömrələri təqdim olundu.

Sonda yubilyar çıxış edərək göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə, Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırova və onu həmişə yüksək səviyyədə qarşılayan el-obasına minnətdarlığını bildirdi.

# 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü qeyd olundu

**Lerik şəhər 3 saylı tam orta məktəbinin akt zalında 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibəti ilə tədbir keçirildi. Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, təhsil işçiləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər.**



Tədbiri giriş sözü ilə açan Lerik Rayon Təhsil Şöbəsinin müdiri Balaşirin Nəsirov əlamətdar gün münasibəti ilə müəllimləri təbrik etdi, xoş arzularını çatdırdı. Son illər cənab Prezidentin diqqət və qayğısı ilə rayonda bir çox yeni məktəb binalarının tikildiyini, əsaslı təmir olunduğunu, məktəblərin ən müasir avadanlıq və ləvazimatlarla təchiz edildiyini qeyd etdi. Hər il rayonun da qabaqcıl müəllimlərinin dövlət başçısı tərəfindən təltif olunmasını vurğulayaraq təhsil işçiləri adından ölkə rəhbərinə minnətdarlığını və razılığını bildirdi.

Tədbirdə Günəşli kənd tam orta məktəbinin direktoru Qurban Ağayev, Lerik Rayon Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin direktoru Araz Qurbanov, Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyinin müəllimi Brilyant Bayramova, əməkdar müəllim Əhməd Əzizov, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 oktyabr tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmiş Lərmərud kənd tam orta məktəbinin müəllimi Əfrəddin Abdullayev çıxış edərək təbriklərini çatdırdılar, əldə olunan nailiyyətlərdən, qarşıda duran vəzifələrdən danışdılar, təhsil işçilərinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, həmçinin rayon rəhbərliyinə minnətdarlıqlarını ifadə etdilər.Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibəti ilə tədbir iştirakçılarının timsalında rayonun bütün müəllimlərini təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzuladı. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 oktyabr tarixli sərəncamları ilə respublikanın təhsil işçilərinə fəxri adların verilməsinin, medalla təltif edilməsinin dövlət başçının bütün sahələrə olduğu kimi, təhsilin inkişafına da göstərdiyi diqqət və qayğısının bariz nümunəsi olduğunu vurğuladı.Təhsildə keyfiyyətin yüksəldilməsində, gənc nəslin təlim-tərbiyəsi sahəsində səmərəli fəaliyyətinə görə və 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibəti ilə bir qrup müəllimə Lerik Rayon İcra Hakimiyyətinin və rayon təhsil şöbəsinin Fəxri Fərmanları və qiymətli hədiyyələr təqdim edildi.Tədbir bədii hissə ilə davam etdirildi.

# Lerik Rayon İcra Hakimiyyəti başçısının 30 sentyabr 2015-ciil tarixli 144 nömrəli sərəncamı ilə təsdiq edilmişdir

*01 noyabr 2015-ci ilə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada Lerik rayonunun yaşayış məntəqələrində dinc yığıncaqlar, mitinqlər, nümayişlər və sair toplantıların keçirilməsi üçün ayrılmış yerlərin*

## S İ Y A H I S I

SİYAHISI

| S/№ | İnzibati ərazi vahidi | Yaşayış məntəqələri | Dinc yığıncaqlar, mitinqlər, nümayişlər və sair toplantıların keçirilməsi üçün ayrılmış yerlər | | |
|---|---|---|---|---|---|
| | | | Qapalı | Açıq | Təbliğat-təşviqat yerləri |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **1.** | **Lerik şəhər inzibati ərazi dairəsi** | | | | |
| 1.1 | | Lerik şəhəri, Hıramo kəndi | Lerik şəhər mədəniyyət evinin iclas zalı | Lerik şəhər "Gənclik" stadionu | Lerik şəhər mədəniyyət evinin foyesi |
| **2.** | **Cəngəmiran kənd inzibati ərazi dairəsi** | | | | |
| 2.1 | | Cəngəmiran, Pirzəkücə kəndləri | Cəngəmiran kənd klubu | Cəngəmiran kənd klubunun qarşısındakı meydan | Cəngəmiran kənd klubunun foyesi |
| **3.** | **Blaband kənd inzibati ərazi dairəsi** | | | | |
| 3.1 | | Blaband, Ambu, Barzavu, Xəlifəkücə, Lüləkəran, Osnağakücə, Şinəbənd kəndləri | Blaband kənd klubu | Blaband kənd klubunun qarşısındakı meydan | Blaband kənd klubunun foyesi |
| **4.** | **Monidigah kənd inzibati ərazi dairəsi** | | | | |
| 4.1 | | Monidigah, Pendi, Jindi, Nisli, Həzovi kəndləri | Monidigah kənd mədəniyyət evi | Monidigah kənd mədəniyyət evinin qarşısındakı meydan | Monidigah kənd mədəniyyət evinin foyesi |
| **5.** | **Livədirqə kənd inzibati ərazi dairəsi** | | | | |
| 5.1 | | Livədirqə, Mastail, Murya,Əvilə, Qədimkücə, Nüsomurya, Yuxarı Bilnə kəndləri | Livədirqə kənd klubu | Livədirqə kənd klubunun qarşısındakı meydan | Livədirqə kənd klubunun foyesi |
| **6.** | **Şingədulan kənd inzibati ərazi dairəsi** | | | | |
| 6.1 | | Şingədulan, Laman kəndləri | Şingədulan kənd mədəniyyət evi | Şingədulan kənd mədəniyyət evinin qarşısındakı meydan | Şingədulan kənd mədəniyyət evinin foyesi |
| 6.2 | | Zenoni, Ağqışlaq, Küman kəndləri | Zenonu kənd klubu | Zenonu kənd klubunun qarşısındakı meydan | Zenonu kənd klubunun foyesi |
| 6.3 | | Durğan kəndi | Durğan kənd klubu | Durğan kənd klubunun qarşısındakı meydan | Durğan kənd klubunun foyesi |
| **7.** | **Molalan kənd inzibati ərazi dairəsi** | | | | |
| 7.1 | | Molalan kəndi | Molalan kənd klubu | Molalan kənd klubunun qarşısındakı meydan | Molalan kənd klubunun foyesi |
| 7.2 | | Sors kəndi | Sors kənd klubu | Sors kənd klubunun qarşısındakı meydan | Sors kənd klubunun foyesi |
| **8.** | **Osyodərə kənd inzibati ərazi dairəsi** | | | | |
| 8.1 | | Osyodərə, Biləvər, Kekonu, Şivlə, Geskon, Bülüdül, Gəndov, Xanəgah kəndləri | Osyodərə kənd mədəniyyət evi | Osyodərə kənd mədəniyyət evinin qarşısındakı meydan | Osyodərə kənd mədəniyyət evinin foyesi |
| **9.** | **Züvüc kənd inzibati ərazi dairəsi** | | | | |
| 9.1 | | Züvüc, Zövnə, Çeşman Arta kəndləri | Züvüc kənd klubu | Züvüc kənd klubunun qarşısındakı meydan | Züvüc kənd klubunun foyesi |
| **10.** | **Kirəvud kənd inzibati ərazi dairəsi** | | | | |
| 10.1 | | Kirəvud, Ordahal, Ərdəbilə kəndləri | Kirəvud kənd klubu | Kirəvud kənd klubunun qarşısındakı meydan | Kirəvud kənd klubunun foyesi |
| 10.2 | | Boykəndil, Buruq, Aran, Lələdulan, Musavar kəndləri | Boykəndil kənd klubu | Boykəndil kənd klubunun qarşısındakı meydan | Boykəndil kənd klubunun foyesi |
| **11.** | **Nücü kənd inzibati ərazi dairəsi** | | | | |
| 11.1 | | Nücü, Lərmərud, Vamazğon, Davıdonu, Haftonu kəndləri | Nücü kənd mədəniyyət evi | Nücü kənd mədəniyyət evinin qarşısındakı meydan | Nücü kənd mədəniyyət evinin foyesi |
| **12.** | **Nüvədi kənd inzibati ərazi dairəsi** | | | | |
| 12.1 | | Vistən, Brkandul, 40-cı kilometr kəndləri | Vistən kənd mədəniyyət evi | Vistən kənd mədəniyyət evinin qarşısındakı meydan | Vistən kənd mədəniyyət evinin foyesi |
| 12.2 | | Nüvədi, Rəzəvul kəndləri | Nüvədi kənd klubu | Nüvədi kənd klubunun qarşısındakı meydan | Nüvədi kənd klubunun foyesi |
| **13.** | **Əliabad kənd inzibati ərazi dairəsi** | | | | |
| 13.1 | | Gürdəsər, Əliabad kəndləri | Gürdəsər kənd mədəniyyət evi | Gürdəsər kənd mədəniyyət evinin qarşısındakı meydan | Gürdəsər kənd mədəniyyət evinin foyesi |
| 13.2 | | Soru, Camaşəir kəndləri | Soru kənd klubu | Soru kənd klubunun qarşısındakı meydan | Soru kənd klubunun foyesi |
| **14.** | **Noda kənd inzibati ərazi dairəsi** | | | | |
| 14.1 | | Noda, Bilnə, Günəşli, Babagil kəndləri | Noda kənd mədəniyyət evi | Noda kənd mədəniyyət evinin qarşısındakı meydan | Noda kənd mədəniyyət evinin foyesi |
| **15.** | **Vizəzəmin kənd inzibati ərazi dairəsi** | | | | |
| 15.1 | | Vizəzəmin, Almu, Bibiyani, Cəngənəvud, Hamarmeşə, Haran, Kıncıvo, Kornədi, Peştətük, Sipyəreqon, Təbrizli, Sivəkəran kəndləri | Vizəzəmin kənd mədəniyyət evi | Vizəzəmin kənd mədəniyyət evinin qarşısındakı meydan | Vizəzəmin kənd mədəniyyət evinin foyesi |
| **16.** | **Siyov kənd inzibati ərazi dairəsi** | | | | |
| 16.1 | | Siyov, Akuşəpeştə, Xəlifəhoni kəndləri | Siyov kənd klubu | Siyov kənd klubunun qarşısındakı meydan | Siyov kənd klubunun foyesi |
| 16.2 | | Qılqılov kəndi | Qılqılov kənd klubu | Qılqılov kənd klubunun qarşısındakı meydan | Qılqılov kənd klubunun foyesi |
| 16.3 | | Hovil kəndi | Hovil kənd klubu | Hovil kənd klubunun qarşısındakı meydan | Hovil kənd klubunun foyesi |
| **17.** | **Bürsülüm kənd inzibati ərazi dairəsi** | | | | |
| 17.1 | | Bürsülüm, Ləkər, Vov, Vənədi, Nosovyədi kəndləri | Bürsülüm kənd klubu | Bürsülüm kənd klubunun qarşısındakı meydan | Bürsülüm kənd klubunun foyesi |

# Lerik Rayon İcra Hakimiyyəti başçısının 30 sentyabr 2015-ciil tarixli 144 nömrəli sərəncamı ilə təsdiq edilmişdir

*01 noyabr 2015-ci ilə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada Lerik rayonunun yaşayış məntəqələrində dinc yığıncaqlar, mitinqlər, nümayişlər və sair toplantıların keçirilməsi üçün ayrılmış yerlərin*

## S İ Y A H I S I

| | | | | | |
|---|---|---|---|---|---|
| 17.1 | | Bobla, Ancəqov, Zeynəko kəndləri | Bobla kənd klubu | Bobla kənd klubunun qarşısındakı meydan | Bobla kənd klubunun foyesi |
| **18.** | **Dəstər kənd inzibati ərazi dairəsi** | | | | |
| 18.1 | | Dəstər, Bradi kəndləri | Dəstər kənd mədəniyyət evi | Dəstər kənd mədəniyyət evinin qarşısındakı meydan | Dəstər kənd mədəniyyət evinin foyesi |
| 18.2 | | Hamarat, Dızdipok kəndləri | Hamarat kənd klubu | Hamarat kənd klubunun qarşısındakı meydan | Hamarat kənd klubunun foyesi |
| **19.** | **Tikəband kənd inzibati ərazi dairəsi** | | | | |
| 19.1 | | Tikəband, Zardoni, Dico, Nıso, Təndul, Hücü, Davradibi kəndləri | Tikəband kənd mədəniyyət evi | Tikəband kənd mədəniyyət evinin qarşısındakı meydan | Tikəband kənd mədəniyyət evinin foyesi |
| **20.** | **Çayrud kənd inzibati ərazi dairəsi** | | | | |
| 20.1 | | Çayrud, Piyəkücə, Andurma kəndləri | Çayrud kənd mədəniyyət evi | Çayrud kənd mədəniyyət evinin qarşısındakı meydan | Çayrud kənd mədəniyyət evinin foyesi |
| 20.2 | | Anzolu, Təngəbin kəndləri | Anzolu kənd mədəniyyət evi | Anzolu kənd mədəniyyət evinin qarşısındakı meydan | Anzolu kənd mədəniyyət evinin foyesi |
| 20.3 | | Rvarud kəndləri | Rvarud kənd mədəniyyət evi | Rvarud kənd mədəniyyət evinin qarşısındakı meydan | Rvarud kənd mədəniyyət evinin foyesi |
| **21.** | **Veri kənd inzibati ərazi dairəsi** | | | | |
| 21.1 | | Veri, Babakücə, Axunahiran kəndləri | Veri kənd mədəniyyət evi | Veri kənd mədəniyyət evinin qarşısındakı meydan | Veri kənd mədəniyyət evinin foyesi |
| 21.2 | | Küsəkəran, Veri-Əliabadı kəndləri | Küsəkəran kənd mədəniyyət evi | Küsəkəran kənd mədəniyyət evinin qarşısındakı meydan | Küsəkəran kənd mədəniyyət evinin foyesi |
| 21.3 | | Qələbin kəndi | Qələbin kənd klubu | Qələbin kənd klubunun qarşısındakı meydan | Qələbin kənd klubunun foyesi |
| **22.** | **Tülüconu kənd inzibati ərazi dairəsi** | | | | |
| | | Conu, Tülü, Qışlaq Vijaker, Hübi kəndləri | Conu kənd klubu | Conu kənd klubunun qarşısındakı meydan | Conu kənd klubunun foyesi |
| | | Qəvoy, Vılık, Loda kəndləri | Qəvoy kənd klubu | Qəvoy kənd klubunun qarşısındakı meydan | Qəvoy kənd klubunun foyesi |
| **23.** | **Qosmalıan kənd inzibati ərazi dairəsi** | | | | |
| 23.1 | | Qosmalıan, Lələhiran, Çökərə, Digah, Divağac, Hiveri, Tatoni, Qələsər, Şonaçola Hoveri kəndləri | Qosmalıan kənd mədəniyyət evi | Qosmalıan kənd mədəniyyət evinin qarşısındakı meydan | Qosmalıan kənd mədəniyyət evinin foyesi |
| **24.** | **Kələxan kənd inzibati ərazi dairəsi** | | | | |
| 24.1 | | Kələxan, Kəlvəz, Göydərə, Məhləabad, Hüseynabad, Aşağı Amburdərə, Xocadoy, Hilədərə Qışlaq, Yuxarı Amburdərə kəndləri | Kələxan kənd mədəniyyət evi | Kələxan kənd mədəniyət evinin qarşısındakı meydan | Kələxan kənd mədəniyyət evinin foyesi |
| **25.** | **Pirəsora kənd inzibati ərazi dairəsi** | | | | |
| 25.1 | | Pirəsora kəndi | Pirəsora kənd mədəniyyət evi | Pirəsora kənd mədəniyyət evinin qarşısındakı meydan | Pirəsora kənd mədəniyyət evinin foyesi |
| 25.2 | | Büzeyir kəndi | Büzeyir kənd klubu | Büzeyir kənd klubunun qarşısındakı meydan | Büzeyir kənd klubunun foyesi |
| **26.** | **Orand kənd inzibati ərazi dairəsi** | | | | |
| 26.1 | | Orand kəndi | Orand kənd klubu | Orand kənd klubunun qarşısındakı meydan | Orand kənd klubunun foyesi |
| **27.** | **Nuravud kənd inzibati ərazi dairəsi** | | | | |
| 27.1 | | Nuravud, Köhnə Orand, Zərdəbərə, Sorsçay kəndləri | Nuravud kənd klubu | Nuravud kənd klubunun qarşısındakı meydan | Nuravud kənd klubunun foyesi |
| **28.** | **Mistan kənd inzibati ərazi dairəsi** | | | | |
| 28.1 | | Mistan, Digov, Digovdərə, Halabın Xəlifəkənd, Pirzora kəndləri | Mistan kənd klubu | Mistan kənd klubunun qarşısındakı meydan | Mistan kənd klubunun foyesi |
| 28.2 | | Rəzgov kəndi | Rəzgov kənd klubu | Rəzgov kənd klubunun qarşısındakı meydan | Rəzgov kənd klubunun foyesi |
| **29.** | **Piran kənd inzibati ərazi dairəsi** | | | | |
| 29.1 | | Piran kəndi | Piran kənd mədəniyyət evi | Piran kənd mədəniyyət evinin qarşısındakı meydan | Piran kənd mədəniyyət evinin foyesi |
| 29.2 | | Zərigümaco, Qışlaq kəndləri | Zərigümaco kənd klubu | Zərigümaco kənd klubunun qarşısındakı meydan | Zərigümaco kənd klubunun foyesi |

### Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatında 2015-ci il üçün vətəndaşların qəbulu günlərinin

## CƏDVƏLİ

| S/s | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qəbul günləri və saatı | Telefon |
|---|---|---|---|---|
| 1 | Bağırov Rövşən Elmidar oğlu | Lerik Rayon İcra Hakimiyyəti başçısı | II gün 10:00-da | 025 274-63-02<br>025 274-61-82 |
| 2 | Baxşıyev Cəlil Yüzbaşı oğlu | Başçının birinci müavini | I gün 11:00-da | 025 274-60-21 |
| 3 | Məlikov Habil Ağaxan oğlu | Başçının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III gün 10:00-da | 025 274-60-22 |
| 4 | Vəliməmmədova Arzu Həmzə qızı | Başçının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV gün 10:00-da | 025 274-60-23 |
| 5 | Rzayev Baləli Yağnəli oğlu | Memarlıq və tikinti şöbəsinin müdiri | V gün 10:00-da | 025 274-46-68 |
| | Bayramov Əlipənah Hüseynağa oğlu | İnformasiya təminatı və təhlil sektorunun müdiri | V gün 10:00-da | 025 274-53-92 |
| 6 | Zahidov Mahmud Abbas oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | VI gün 11:00-da | 025 274-54-70 |
| | Quliyev Araz Qurban oğlu | Hüquq şöbəsinin müdiri | VI gün 11:00-da | 025 274-47-64 |

**Qeyd:** Azərbaycanın Milli Qəhrəmanları və onların ailə üzvləri, şəhid ailələri və Qarabağ əlilləri rayon icra hakimiyyəti başçısı aparatına müraciət edərkən növbədənkənar qəbul edilir.
Bayram günlərinə düşən qəbul günləri növbəti iş günlərinə keçirilir.

# Vəkil Əli oğlu Ağababayev



Lerik rayon ictimaiyyətinə böyük itki üz vermişdir. Vəkil Əli oğlu Ağababayev uzun sürən ağır xəstəlikdən sonra 25 sentyabr 2015-ci il tarixdə dünyasını dəyişmişdir.

Vəkil Ağababayev 30 iyun 1942-ci ildə Kirəvud kəndində zəhmətkeş bir ailədə anadan olub. Atası dünyasını erkən dəyişdiyindən uşaqlıq illəri bir qədər fərəhsiz keçib.

V.Ağababayev yeddinci sinfə qədər Boykəndil kənd 8-illik məktəbində, VII-IX sinifləri isə Gürdəsər kənd orta məktəbində oxuyub. 1960-cı ildə Lerik qəsəbə orta məktəbini bitirib. Bakıda, Xəzər Dəniz Gəmiçilik İdarəsinin 445 saylı Tikinti İdarəsində bir il fəhləlik edəndən sonra Azərbaycan Dövlət Universitetinin (BDU) geoloji-coğrafiya fakültəsinə daxil olub. 1965-ci ilə qədər fəhlə və komsomol katibi işləyən V.Ağababayev 1962-ci ildə Ümumittifaq Komsomolunun XIV qurultayına nümayəndə seçilib. 1962-1966-cı illərdə Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin üzvü, Oktyabr (indiki Yasamal) rayon Komsomol Komitəsinin büro üzvü olub.

"Kommunist", "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana" qəzetlərində onun haqqında maraqlı oçerklər dərc olunub. 1962-ci ildə V.Ağababayevin tikintidəki iş təcrübəsindən bəhs edən "İkinci sevinc" kitabı nəşr olunub. "Vəkil bizim dostumuzdur" adlı sənədli film Vəkil Ağababayevə həsr olunub.

V.Ağababayev 1965-ci ildə Lerik rayonuna qayıdır, Şingədulan kənd orta məktəbinə müəllim təyin olunur. "Bolluq uğrunda" (indiki "Lerik") rayon qəzeti nəşrini bərpa etdikdən sonra onu redaksiyada ədəbi işçi işləməyə dəvət edirlər. O, rayon qəzetində 1968-ci ilin aprelinə qədər işləyir, müxtəlif yazıları ilə diqqəti cəlb edir, hekayələri oxucuların diqqətini çəkir, tanınır, hörmət və nüfuz qazanır, xeyirxahlığı ilə seçilir.

1968-ci ilin aprelindən partiya işinə irəli çəkilir, 1972-ci ilin avqustuna qədər Lerik rayon Partiya Komitəsində təlimatçı vəzifəsində çalışan V.Ağababayev 1975-ci ildə Bakı Ali Partiya Məktəbini bitirir. O, yenidən Lerik RPK-da təlimatçı vəzifəsinə götürülür, 1977-ci ildən 1991-ci ilə kimi Lerik Rayon Rabitə Qovşağının rəisi, rayon Xalq Nəzarəti Komitəsinin sədri, rayon Avtonəqliyyat Müəssisəsinin rəisi kimi məsul vəzifələrdə çalışır. 1991-ci ildə Lerik rayon Poçtamtının rəisi vəzifəsində işləyir.

V.Ağababayev dəfələrlə rayon Sovetinin deputatı, RPK-in büro üzvü, Lerik RİH-in kabinet üzvü, Lerik Rayon Ağsaqqallar Şurasının sədri seçilmişdir. O, xeyriyyəçilik fəaliyyəti ilə cənub zonasında tanınmışdı. A.Nuriyev adına Lerik 1 saylı orta məktəbində ən yaxşı oxuyan şagird üçün Azərbaycanın Milli Qəhrəmanı Rövşən Abdullayev adına iki təqaüd təsis etmişdi. Tələbələrə, müasir memarlıq abidələrinin tikintisinə, əlil və şəhid ailələrinə, Qarabağ cəbhəsinə maddi kömək edib, dəfələrlə cəbhədəki əsgərlərə baş çəkib, onları qələbəyə ruhlandırıb, həmişə ziyalı mövqeyi, yurd-vətən sevgisi ilə nümunə olub.

Vəkil Ağababayev dörd övlad atası idi. Böyük oğlu Respublika Xarici İşlər Nazirliyinin əməkdaşıdır. Qalan övladları müxtəlif sahələrdə işləyirlər.

V.Ağababayev indi aramızda olmasa da, onun yeri görünür.

Allah eldən gedən Vəkil müəllimə rəhmət etsin.

**Yoldaşlarından bir qrup.**

# Son on ildə Lerik rayonunda 44 məktəb tikilib və əsaslı təmir olunmuşdur

Son on ildə Lerik rayonunda 44 məktəb tikilib və əsaslı təmir olunmuşdur. Bunlardan 4 məktəbi Heydər Əliyev Fondu, 10 ibtidai və 1 ümumi orta məktəb Lerik Rayon İcra Hakimiyyətinin daxili imkanları hesabına və 1 ümumi orta məktəbi isə iş adamları tərəfindən tikilərək şagirdlərin istifadəsinə verilmişdir.

2014-2015-ci tədris ilində 752 yerlik 4 tam orta, 1 (Ərdəbilə) ibtidai məktəb binası inşa olunmuşdur. Bu məktəblərin hamısı müasir texniki təlim vasitələri və inventarlarla təchiz olunmuşdur. Hazırda hər biri 180 şagird yerli Boykəndli, Pirasora, Anbu kənd tam orta və 180 yerlik Əvilə kənd ümumi orta məktəbləri üçün müasir tipli binalar tikilir. Pirasora və Anbu kənd tam orta məktəblərinin binaları gələcəyimiz olan məktəblilərin istifadəsinə veriləcəkdir.

# Tələbə adı qazanmışlar

**Tam orta təhsil bazasından ali məktəblərə 2015-ci ildə 281 nəfər məzun sənəd vermiş, əvvəlki illərin məzunları daxil olmamaqla 116 nəfər, o cümlədən 20 nəfər qız ali məktəblərə qəbul olunmuşdur. 15 nəfər məzun 500-dən yuxarı, o cümlədən 6 nəfər məzun 600-dən yuxarı bal toplamışdır.**

Yüksək bal toplayanlardan 6 nəfəri qızlar təşkil edir. Müqayisə üçün bildirək ki, keçən il 500-dən yuxarı bal toplayanların sayı 14 nəfər idisə, bu il bu rəqəm 15 olmuşdur. Ali məktəblərə daxil olmuş bütün məzunları, onların valideynlərini təbrik edir, onlara təhsildə yeni uğurlar arzulayırıq.

# Murov qartalı

**Feyziyev Tofiq İzzət oğlu 3 mart 1974-cü ildə Lerik rayonunun Aran kəndində fəhlə ailəsində anadan olub. O, 1992-ci ilin avqust ayında Lerik rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağrılıb. Nasosnı ərazisində yerləşən "N" saylı hərbi hissədə xidmət etməyə başlamışdır. Bir ay burada xidmət etdikdən sonra Laçın rayonu ərazisində yerləşən Hoçaz yüksəkliyi deyilən bir yerdə düşmənlə döyüşə atılmışdır.**

1993-cü ilin yay aylarında Hoçaz yüksəkliyi uğrunda gedən döyüşlərdə yaralanmış və bundan sonra helokopterlə Gəncə şəhərində yerləşən hərbi hospitala qaytarılmışdır. Tofiq topuğundan qəlpə yarası almışdı. Tofiq bir müddət burada müalicə aldıqdan sonra anasıyla görüşmək üçün Aran kəndinə göndərilmiş, anasıyla görüşüb yenidən hərbi hissəyə qayıtmışdır. O, Murov dağda Kəlbəcərin müdafiəsi uğrunda gedən döyüşlərdə, 701 saylı hərbi hissədə öz döyüş yolunu igidliklə davam etdirmişdir.

Əsgər yoldaşlarının dediyinə görə, o mənfur erməni faşistlərinə qarşı çox amansızcasına döyüşürmüş. O, ölümdən yox, ölüm ondan qorxurdu.

1994-cü ilin fevral ayının 14-də Kəlbəcər rayonunun müdafiəsi zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş şəraitində şəhid olmuşdur.

Allah rəhmət eləsin.

Şəhid oğulların məzarlarıdı,
Gözümün önündən keçir birbəbir.
Tofiq kimi igid, nər oğulları,
Öz xalqın, Vətəni həmişə sevir.

### Murov qartalı

Şəhidsən! Şəhidlik zirvəsindəsən,
Səni uca tutur hər bir vətəndaş!
Ən uca zirvədə duran Tanrıdı,
Ucalar yanında ucasan, qardaş!

Sən qanla yazdırdın adını şəhid,
Tarixin pozulmaz səhifəsinə.



Qanınla yazılan imzanı qoydun,
Qırmızı şəhidlik vəsiqəsinə.

Bir nəslin, bir elin, bir soykökünün,
Adları adınla qoşa dayandı.
Ən yüksək zirvəyə qalxdığın o gün,
Hər tərəf qırmızı rəngə boyandı.

Sən Vətən səsisən, qeyrət rəmzisən,
Özün uxaldıqca Vətən ucalar.
Göstərdin bu yolu bütün gənclərə
Bu yol yaşadıqca deməк Vətən var!

**Zahid Feyzi Lerikli**

# Bu barədə ilk dəfə





Lerik şəhər sakini Söhbət kişi (o, Barzavu kəndində təvəllüd tapmışdır) mənə bir kitab göstərərək dedi:

- Qardaşım Ataxan Fərzəliyev haqqında burada yazılmışdır. Axı, o, müharibə veteranıdır, Odessa şəhərində yaşayır.

Kitabı nəzərdən keçirdim. "Ukraynanın xatirə kitabı" (IV cild) adlanırdı. Anotasiyadan məlum oldu ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsindən sonra geri qayıtmış və hazırda Odessa vilayətinin ərazisində yaşayan veteranlar haqqındadır.

Ataxan Fərzəliyev 1922-ci ildə Barzavu kəndində anadan olmuşdur. O, 1941-ci idən 1945-ci ilin may ayınadək vuruşan cəbhədə olmuşdur. Baş leytenant rütbəsində olmaqla döyüş şücaətinə görə iki dəfə "Qırmızı Ulduz" və II dərəcəli Böyük Vətən müharibəsi ordeni, "İgidliyə görə", "Qələbəyə görə" və s. medallara, təltiflərə layiq görülmüşdür.

Onun qardaşı, birinci qrup müharibə əlili, 20-yə qədər orden və medala layiq görülmüş Söhbət kişi telefonla Ataxana zəng vurdu. Ataxan kişi bizimlə Azərbaycan və Talış dillərində çox təmiz və səlis danışdı, doğma kənd və yaxınları üçün darıxdığını dedi. Bizə geniş məlumat verəcəyini bildirdi.

Ataxan Fərzəliyevin şəklini oxuculara təqdim edirik. Bizi izləyin.

**"Azad təfəkkür"**

# Xidmət mədəniyyəti

**Xidmət mədəniyyəti anlayışı bir çox sahələrə aiddir. İlk növbədə insanlara xidmət edən bu mədəniyyət getdikcə təkmilləşir, yeni məna və yeni məzmun təşkil edir.**

Dostum deyir ki, mən ilk dəfə olaraq qardaş Türkiyə Respublikasında bir həftə təcrübə mübadiləsində oldum. Təbii ki, burada insanların qarşılıqlı münasibəti, turistlərə diqqət və qayğı, xoş münasibət göstərilən xidmət mədəniyyəti, ekoloji təmizlik, zövq oxşayan abad və yaraşıqlı səhərlər, mehriban insanlarla yadda qaldı. Ən əsası da yadda qaldı unudulmuz səfərimiz.

Maraqlandığımı görüb dostum Türkiyə səfərindən çox danışdı.

- Mən orada insanlara göstərilən nümunəvi xidmət mədəniyyətindən danışmaq istəyirəm, - deyə o, sözünə davam etdi. - Nahar yeməyinə əyləşmişdik. Bizim qrup restoranın bir guşəsində əyləşmişdi. Başqa müştərilər də çox idi. Aramızda siqaret çəkməyənlər vardı. Lakin qonşu stolda əyləşib yemək-içməklə məşğul olanlar çox siqaret çəkirdilər və tüstüsü bizə də təsir edirdi. Bunu görən qrupumuzun türkiyəli rəhbəri restoranın rəhbərliyini çağıraraq bu mənzərəyə etirazını bildirdi. Beləliklə də oturduğumuz yer dəyişdirildi, daha rahat və münasib yerdə əyləşdik, nahar etdik. Bunu ona görə xatırladım ki, həmin mənzərə göstərilən xidmət mədəniyyətinə yaxşı bir nümunədir. Ümumiyyətlə, qardaş ölkədə nəqliyyatda, hava limanında, yeməkxanada, ticarət obyektlərində rastlaşdığımız xidmət mədəniyyəti bizi məmnun edirdi.

- Bizdəki xidmət mədəniyyəti sizi razı salırmı?

- Təbii ki, xidmət mədəniyyətimizdə yaxşı cəhətlər çoxdur. Ancaq biz müqayisədə daha da irəli getməli, mədəniyyətimizlə, insanlara münasibətimizlə, qonaqsevərliyimizlə həmişə diqqəti cəlb etməliyik, öyrənməliyik.

- Xidməti yüksək olan yeməkxanalara axın daha çox olur, elə deyilmi?

- Düz buyurursunuz. Harada ki, xidmət yaxşıdır, halallıq var, orada insanlara lazım olan hər şey yaxşıdır. Üstəgəl, müştərilərin axını da öz yerində. Ən əsası da insanlar daha çox fayda gördükləri üçün həmişə onlara duaçı olur, mənəvi rahatlıq tapırlar.

Allah hər şeyi bilən və görəndir, ona hər şey agahdır. Xidmət sahəsində çalışanlar insanlığı həmişə uca tutmalı, insaflı və mürvətli, alicənab olmalıdırlar.

Əziz oxucu, hər bir xalqın xidmət mədəniyyəti var. Bəs sən nə düşünürsən, xidmət mədəniyyəti barədə fikrin nədir?

**Zahid Cabbarov**



# Ruhun şad olsun!



**Səməndər ana Yardımlının Abasabad kəndindən Lerik rayonunun Gendov kəndinə gəlin köçmüşdü. Dünyanın hər üzünü görən ana 80-dən çox yaşadığı avqust ayında dünyasını dəyişdi.**

Seyid qızı olan Səməndər anadan qalan övladları, nəvə-nəticələri, bir də xoş əməlləri oldu.

Ağbirçək ana qız-gəlinlərin sirdaşı, sinəsi söz, bayatı, hikmət bağçası idi. Gündə dəfələrlə Allaha dua edər, xalqımıza, millətimizə əmin-amanlıq arzulardı. İstəməzdi ki, kimsənin başından bir tük əskik olsun. Bir sözlə, Səməndər ana analar anası idi.

Ulu Yaradandan ona rəhmət diləyirik.

Məzarı behişt olsun!

## Dayım eldən getdi

Anamın dərdi bir yandan, heç onun qırxı çıxmamış dayım, həyatda dostum və sirdaşım xalq sənətkarı Xanhüseyn Bağışov vaxtsız vəfat etdi. O, Abaşabad kəndinə - sonbeşik qızının toyuna getməzdən bir gün qabaq mənimlə görüşdü. Qayğılı görünürdü.

- Dünyanın işini bilmək olmaz. Bəlkə bir də görüşmədik. Gəl səni doyunca öpüm, - deyə dayım Xanhüseyn məni qucaqladı.

Dayım Xanhüseyn belə deməyi, boynuma sarılmağı məni çox kövrəltdi.

Bəzən adamın başına gələnlər əvvəlcə dilənə gəlirmiş. Düzdür, dayım Xanhüseyn çox həssas, dost yolunda fədakarlıq edən, qohumcanlı, düzlüyü sevən idi. Qabağından söz götürməzdi. Mərdəkanda nəzakətsiz və yekəxana danışan birisinin dərsini necə vermişdisə, indi də bu barədə danışırlar.

Toy günü gözlənilməz xəbər gəldi: dayım Xanhüseyn qızının toyunda oynarkən həyatını itirir, bir daha özünə gəlmir. Belə ölümü heç kəs gözləmirdi. Görünür, qismət, olacaq belə imiş

Sevimli dayım bir neçə peşə sahibi idi. Təkcə Yardımlıda yox, ətraf rayonlarda məşhur olan balabançı Nəcəfdən, xalq sənətkarı Həsrət Hüseynovdan balabanda ifa etməyin sirlərinə bələd olmuşdu. Sənətkarlıqda laureat adını almış, ona döş nişanı verilmişdi. Məclislərin yaraşığıydı. O, halal zəhməti, mərdliklə yaşamağı, etibarı, düz ilqarı hər şeydən uca tuturdu.



Dayım Xanhüseyn dörd oğul, iki qız atasıydı, nəvə sahibi idi. On beş il idi ki, Şüvəlanda yaşayırdı. Bilməzdik ki, ömrü yarımçıq qalacaq

Biz səni unutmamışıq, dayı! Hərdənbir burnumuzun ucu göynəyir səndən ötrü.

Rahat yat, qapısız, bacasız qara torpaqda, dayı.

Allah əmanətisən. Yəqin ki, ruhun bacın Səməndər anamın ruhuna qovuşub.

**Sulduz Həşimli,
müğənni**



## Elan

Dövlət Yerquruluşu Layihə İnstitutu və DTXK-nin Lerik rayon şöbəsi tərəfindən Lerik şəhər sakini Məmmədov Xoşbəxt Müzəffər oğlunun adına verilmiş JM 237 saylı torpaq mülkiyyət hüququna dair Dövlət Aktı naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin

Musa Bədəlov, Qəhrəman Əliyev, Ağasəfər Həsənli, İslam Qəribli, Həmzə Vəliməmmədov, Hidayət Bəşirova, İdris Şükürlü, Fəxrəddin Muradov, Vəliağa Şahpələngov, Xureyman Qarayev, Musarza Məmmədov, Qəhrəman Novruzov, Atamalı Nəcəfov, Nəcəf Məmmədov, Aslan Mirzəyev, Ramiz Məmmədov, Əmirxan Kərimov

**Vəkil Ağababayevin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.



Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36,
Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 2356 Tiraj: 750

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi: AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935
Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.